Ölkəmizdə neft strategiyasının təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Belə ki, 1994-cü ildə ümummilli liderin təşəbbüsü ilə Bakıda Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı olmaqla dünyanın 7 ölkəsinin 11 ən iri neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" neft yataqlarının və "Günəşli" neft yatağının bir hissəsinin müştərək işlənməsi və hasilatın pay bölgüsü haqqında Saziş - "Əsrin müqaviləsi" imzalandıqdan sonra ölkəmizə böyük həcmdə investisiyalar qoyulmağa başlanmışdır. Vaxtilə reallaşmasına inanılmayan, çox böyük çətinliklərlə ərsəyə gələn "Əsrin müqaviləsi" bir müddət sonra dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanmasına yol açdı. Bu müqavilə Xəzər dənizində beynəlxalq əməkdaşlığın əsasını qoydu. Öz zəngin neft resurslarını dünya bazarlarına çıxarmaq imkanı əldə edən ölkəmizin ümumi iqtisadi və siyasi inkişafı məhz "Əsrin müqaviləsi" ilə başladı. Eyni zamanda, siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilələrdən biri olan "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil oldu. Əsrimizin ən böyük enerji layihəsi qısa müddətdə ümidləri doğruldaraq real nəticələr verməyə başladı və 1997-ci ilin noyabrında "Çıraq" platformasından ilkin neft hasil olundu. Bunun ardınca "Azəri", "Günəşli" yataqlarının işlənməsi nəticəsində hasilatın ildən-ilə artacağı gözlənilirdi. Bakı-Novorossiysk və Bakı-Supsa ixrac sistemləri isə artan həcmlər üçün kifayət deyildi. Ulu öndər Heydər Əliyev daha qlobal bir boru xəttinin tikilməsinə qərar verdi. 1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalandı. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməli qoyuldu və tikintisinə başlandı. 2004-cü ilin oktyabrında isə BTC-nin Azərbaycan hissəsi Gürcüstan hissəsi ilə birləşdirildi.

# Neft strategiyasının uğuru BTC

*Azərbaycan Prezidenti İlham Əliyev 2006-cı il iyulun 13-də Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin açılış mərasimində iştirak etmişdir*




Xalqımızın ümummilli lideri Heydər Əliyevin çox böyük uzaqgörənliklə işləyib hazırladığı Azərbaycanın neft strategiyasının təntənəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində keçirilmişdir. XXI əsrin ən böyük enerji layihəsinin açılış mərasimində iştirak edən Prezident İlham Əliyev demişdir: "Azərbaycanın ümummilli lideri Heydər Əliyevin fəaliyyəti nəticəsində bu gün biz bu gözəl anları yaşayırıq. Nəzərə alsaq ki, həm ölkə daxilində, həm də bölgədə və bütövlükdə, müəyyən mənada dünyada Bakı-Tbilisi-Ceyhan neft kəmərinə inam o qədər böyük deyildi, onda görərik ki, bu işin həyata keçirilməsi nə qədər böyük çətinliklərlə müşayiət olunurdu. İnanmayan var idi, eyni zamanda, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasının qarşısının alınmasına çalışanlar var idi, problemlər, maneə törədənlər var idi. Ancaq xalqımızın iradəsi, Azərbaycan, Türkiyə, Gürcüstan rəhbərliyinin iradəsi, bizim birgə fəaliyyətimiz bu əfsanəni gerçəkliyə çevirdi".

Azərbaycan neftini dünya bazarlarına çıxaran 3 ixrac neft kəmərindən ən böyüyü - Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışı zamanı ölkə başçımız 1994-cü ildə iqtisadi böhran vəziyyətində olan, müstəqilliyini yenicə bərpa edən, sabitliyin tam bərqərar olmadığı bir ölkəyə xarici investorları cəlb etməyin, böyük həcmdə investisiyaların yatırılmasına nail olmağın böyük siyasi bacarıq, uzaqgörənlik tələb etdiyini və ulu öndərin müdrik siyasətlə bunu reallaşdırdığını bildirmişdir. Prezident çıxışında qeyd etmişdir ki, həyata keçirilən uğurlu layihələr Azərbaycanın neft şöhrətini yenidən özünə qaytarmış və bu imkanlardan səmərəli istifadə edərək ölkəmiz öz iqtisadi potensialını gücləndirmişdir. 12 il ərzində ölkə iqtisadiyyatının ümumilikdə 26 faiz artdığını deyən dövlət rəhbəri bu müddətdə neft-qaz sənayesinə 20 milyard dollardan çox vəsait qoyulduğunu və neft infrastrukturunun tamamilə yeniləndiyini diqqətə çatdırmışdır.

Həm "Azəri-Çıraq-Günəşli" neft yataqlarının işlənilməsində, həm də Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşasında Amerika Birləşmiş Ştatlarının dəstəyini və həlledici rolunu xüsusi vurğulayan Prezident İlham Əliyev layihənin gerçəkləşməsində beynəlxalq əməkdaşlığı - Türkiyə, Gürcüstan və Azərbaycanın, eyni zamanda xarici neft şirkətlərinin, xarici maliyyə qurumlarının, yerli mütəxəssislərin birgə fəaliyyətinin səmərəli nəticə verdiyini bildirmişdir. Xarici şirkətlərlə birgə fəaliyyəti, o cümlədən bp şirkətinin Bakı-Tbilisi-Ceyhan layihəsində aparıcı rolunu və bu şirkətin Azərbaycana verdiyi töhfələri yüksək qiymətləndirən dövlət rəhbəri Azərbaycanın bu illər ərzində neft amilindən məharətlə istifadə edərək iqtisadi cəhətdən inkişaf etdiyini diqqətə çatdırmışdır.

Prezident İlham Əliyev bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəyini, ölkədə bütün sosial problemlərin öz həllini tapacağını, gələcəkdə Azərbaycanın neft ixrac edən çox önəmli bir ölkəyə çevriləcəyini və dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəyini demişdir.

Bakı-Tbilisi-Ceyhan neft kəmərinin strateji əhəmiyyətindən bəhs edən ölkə başçısı kəmərin işə düşməsinin bölgədəki proseslərə böyük təkan verdiyini, bunun ardınca tezliklə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin istismarına başlanacağını nəzərə çatdırmış və Azərbaycan qazının Gürcüstana və Türkiyəyə çatdırılmasının çox böyük önəm daşıdığını qeyd etmişdir. Açılış mərasimindəki çıxışında Azərbaycanın dövlət başçısı bildirmişdir ki, Bakı-Tbilisi-Ceyhan kəmərinin tamamlanması ilə Qazaxıstan öz neftini bu kəmər vasitəsilə dünya bazarlarına çıxaracaq, eyni zamanda ölkəmiz "Şahdəniz" qaz yatağından çıxarılan qazı Avropaya göndərəcəkdir.

BTC-nin işə düşməsi ilə Azərbaycanın həm neft-qaz hasil edən, həm də tranzit ölkə kimi fəaliyyətə başlaması üçün geniş imkanlar açılacağını, bölgənin sürətlə inkişaf edəcəyini vurğulayan İlham Əliyev qarşıda bir çox həlli vacib olan məsələlərin dayandığını, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolunun açılması məsələsinin artıq gündəlikdə olduğunu vurğulamışdır. Ümumiyyətlə, ölkə başçımız qədim İpək Yolunun bərpasında, regional müstəvidə müttəfiq ölkələr olan Azərbaycan, Türkiyə və Gürcüstanın səmərəli işbirliyini, əməkdaşlığını mümkün edən Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çox böyük əhəmiyyətini qeyd etmiş və bildirmişdir ki, hər üç ölkə bu layihənin həyata keçirilməsindən böyük gəlir götürəcək.

Həm Türkiyə, həm də Gürcüstanla ölkəmizin ikitərəfli münasibətlərinin yüksək səviyyədə olduğunu deyən dövlət rəhbəri Azərbaycanda icra olunan böyük enerji layihələrinin xalqlarımızı bir-birinə daha da yaxınlaşdırdığını bildirmiş, gələcək inkişafın enerji mənbələri ilə bağlı olacağını, enerji təhlükəsizliyinin ölkələrin ümumi təhlükəsizliyinə çox böyük töhfə verdiyini, müstəqilliyini möhkəmləndirdiyini vurğulamışdır. Bu baxımdan, Bakı-Tbilisi-Ceyhan layihəsinin çox geniş aspektləri olduğunu, strateji əhəmiyyət daşıdığını, ölkələrimizin müqəddəratını təmin edəcəyini qeyd etmişdir.

Layihənin təşəbbüskarı, memarı olan ümummilli lider Heydər Əliyevin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin Azərbaycan, Gürcüstan və Türkiyənin işbirliyi, qardaşlığı, əməkdaşlığını bundan sonra daha da möhkəmləndirəcəyinə və bölgəyə sülh, sabitlik gətirəcəyinə əminliyini ifadə etmişdir.

Qeyd edək ki, 2006-cı il iyulun 13-də Türkiyənin Ceyhan şəhərində açılış mərasimi keçirilən, XXI əsrin ən böyük enerji layihəsi olan, Xəzər dənizinin Azərbaycan sektorunda hasil olunacaq xam neftin dünya bazarına çıxışını təmin etmək üçün "Əsrin müqaviləsi" çərçivəsində inşa edilən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin 443 kilometri Azərbaycanın, 248 kilometri Gürcüstanın, 1076 kilometri isə Türkiyənin ərazisindən keçir. Ümumi uzunluğu 1767 kilometr olan kəmərin istismar müddəti 40 il, orta ötürücülük qabiliyyəti isə gündə 1 milyon bareldir.

Ölkənin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqlini həyata keçirən Bakı-Tbilisi-Ceyhan neft kəməri ümummilli lider Heydər Əliyevin neft strategiyasının mühüm tərkib hissəsidir və bu, region üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan neftinin dünya bazarlarına nəqlini təhlükəsiz və ən yüksək beynəlxalq standartlara uyğun şəkildə gerçəkləşdirən BTC ölkə iqtisadiyyatının daha sürətlə inkişafına və ölkəmizin karbohidrogenlərin işlənməsi üçün çox önəmli nəqliyyat limanına çevrilməsinə geniş imkanlar yaradır.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2022.- 14 iyul.- S.7.